Gəncliyimiz gələcəyimizdir

# Azərbaycan kimi ölkədə yaşayan insanlar xoşbəxtdirlər

*Müsahibimiz Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının baş məsləhətçisi, Binəqədi Bələdiyyəsinin Mətbuat, informasiya və gənclərlə iş üzrə komissiyasının və Hüquq komissiyasının sədr müavini Kubra Əliyarlıdır.*

***- Özünüzü təqdimatla başlayaq, Kubra Əliyarlı kimdir?***

- 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olmuşam. Bakı şəhərindəki 283 nömrəli tam orta məktəbi bitirmişəm. İlk olaraq, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi, sonra isə Azərbaycan Dövlət İqtisad Universitetində Beynəlxalq münasibətlər ixtisası üzrə ali təhsil almışam. 2006-2010-cu illərdə "Səs" qəzetinin Siyasət şöbəsində və 2008-2010-cu illər ərzində "Səs" İnformasiya Agentliyində müxbir vəzifəsində çalışmışam. 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında rəsmi akkreditasiyadan keçmiş müxbir olaraq cənab Prezident İlham Əliyevin iştirak etdiyi tədbirləri işıqlandırmışam. 2010-cu ildə Yerli Ekologiya Məsələləri Komissiyasında sədr müavini vəzifəsinə irəli çəkilmişəm. 2010-cu ildə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin hesabat-seçki konfransında sədr müavini seçildim. 2014-cü ilin may ayında Binəqədi rayon təşkilatının Qadınlar Şurasına üzv seçilmişəm. 2014-cü ildən Binəqədi Bələdiyyəsinin Mətbuat, informasiya və gənclərlə İş üzrə Komissiyasının və cari ildən isə Hüquq komissiyasının sədr müaviniyəm. 2018-ci ildən 2019-cu iləndək YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin KİV-lə və sosial media ilə əlaqələrin qurulması komissiyasının sədri, cari ilin mart ayından Gənclər Birliyinin Şura üzvüyəm. 2013-cü ildən YAP Binəqədi rayon təşkilatında məsləhətçi, 2015-ci ildən baş məsləhətçi vəzifəsində çalışıram. "Davamlı İqtisadi və Sosial Maarifləndirmə" İctimai Birliyinin təsisçisi və sədriyəm. İki kitabın - "Şəhidlərimiz xatirələrdə", "Sözün hikməti" nəşrlərinin müəllifiyəm.

***- Nəyə görə ilk ixtisas seçiminiz məhz jurnalistika oldu?***

- Jurnalist ixtisası üzrə ali təhsil almaq mənim uşaqlıq arzum idi. Hələ uşaqlıq yaşlarımdan, orta məktəbdə oxuduğum illərdən televiziya kanallarında daha çox xəbərlər proqramlarına, siyasi məzmunlu verilişlərə daha çox maraq göstərirdim. Orta məktəbdə təhsil alarkən dərs tənəffüslərində sinif yoldaşlarımla birgə canlandırdığımız müxtəlif oyunlarda, səhnəciklərdə mən jurnalist rolunda çıxış edərdim.

***- Müstəqil ixtisas seçimi peşəkarlıq üçün vacib rol oynayırmı?***

- Bəzi ailələrdə valideynlər övladlarının ixtisas, peşə seçimlərinə müdaxilələr edirlər. Gənclərimizi arzulamadıqları, özlərini uğurlu kadr hesab etmədikləri sahələrə məcburən yönləndirirlər. Mən ailəm tərəfindən heç vaxt belə bir müdaxilə və diktə ilə qarşılaşmamışam. Ailəm mənim ixtisas seçimimə hər zaman dəstək verib. Təbii ki, insanların, xüsusilə gənclərin motivasiya olunması, göstərilən dəstək onlara stimul verməklə yanaşı, gələcək uğurları üçün də zəmin yaradır.

***- Azəbaycan dövlətinin gənclər üçün yaratdığı imkanlar bir gənc olaraq sizi qane edirmi?***

- Dövlətin gələcək inkişafının təmin olunmasında sağlam ruhda yetişmiş və vətənpərvərlik kimi yüksək keyfiyyətə malik gəncliyə sahib olmaq vacibdir. Azərbaycan elə dövlətlərdəndir ki, onun vətənpərvər, sağlam əqidəyə sahib olan və onun inkişafına töhfə verməyə hazır olan bir gəncliyi vardır. "Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyən ümummilli liderimiz Heydər Əliyevin gənclərimizin inkişafı istiqamətində əvəzsiz rolunu xüsusi olaraq vurğulamaq istərdim. Onun tərəfindən əsası qoyulan gənclər siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülən işlərə nəzər salsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görərik. Təbii ki, bütün bunlar onlar üçün yaradılan şəraitin, qəbul edilən və uğurla icra edilən çoxsaylı Dövlət proqramlarının nəticəsidir. Gənclərimizin yüksək təhsil alması, vətənpərvər, fəal gənclik kimi yetişməsi, formalaşması üçün dövlət başçısı cənab İlham Əliyev tərəfindən mühüm islahatlar həyata keçirilib.

***- Dövlətimizin gələcək inkişafında Yeni Azərbaycan Partiyasının rolunu necə dəyərləndirirsiniz?***

- Müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası tariximizin son dərəcə ağır və keşməkeşli günlərində, ölkəmizin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaradıldı. YAP-ın yaradılması müstəqil Azərbaycan tarixində mühüm bir hadisədir. Ulu öndər Heydər Əliyev qüdrətinin məhsulu olan YAP-ın yaradılması tarixi zərurət idi. Yarandığı vaxtdan bu günədək uğurlu siyasi fəaliyyəti və xalqla həmrəyliyi ona olan inamı və etibarı daha da artırdı. İllər keçdikcə ətrafında yüz minlərlə vətəndaşı topladı. Bu gün partiyanın dövlətimizin və xalqımızın həyatında mühüm yeri var. YAP-ın Sədri, Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəkləyən hər bir vətəndaşımız bu partiya sıralarına qoşularaq, dövlətimizə və onun başçısına sədaqətini ifadə edir. Bizim artıq güclü dövlətimiz var - müstəqil Azərbaycan dövləti. Bu gün Heydər Əliyev siyasəti davam etdirilir və əlbəttə ki, zənginləşdirilir. Bu gün bütün guşələri nura çevrilən müstəqil Azərbaycanımızı uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, Vətənin mənafeyi naminə səy göstərir.

***- Yeni Azərbaycan Partiyasının gənclər siyasətinə münasibətin necədir?***

- Yeni Azərbaycan Partiyası gənclərlə işin yüksək səviyyədə qurulmasını və onların hərtərəfli inkişaf etdirilməsini qarşısında duran əsas məqsədlərdən biri hesab edir. Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının gənclərlə işin təşkili istiqamətində bütün bunlarla yanaşı, xüsusi diqqət ayırdığı sahələrdən biri də gənclərdə vətənpərvərlik hisslərinin daha da artırılması, təbliğ edilməsidir. Rayon təşkilatının bu mövzuda keçirilən bütün tədbirlərində Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz ədalətli həllini tapması fikirləri qəti şəkildə vurğulanmışdır. Müharibə şəraitində olan və torpaqlarının 20 faizi işğal edilmiş bir ölkənin vətəndaşlarının hər zaman vətənpərvərlik hissləri ilə öz dövlətinin haqlı mövqeyini müdafiə etmək iqtidarında olması önə çəkilmişdir. Binəqədi rayon təşkilatı tərəfindən təsdiq edilən Fəaliyyət planlarında məhz vətənpərvərliyin təbliğinə həsr olunmuş tədbirlər xüsusi əhəmiyyət kəsb edib.

***- Vətən sevgisi sizin üçün hansı anlamı ifadə edir?***

- Vətən sevgisi ali, əvəzsiz, müqəddəs məfhumdur mənim üçün. Vətən and yerimdir. Vətən doğulub, boya-başa çatdığımız, qoynunda yaşadığımız, bizə havasını, suyunu, torpağını, min bir nemətini bəxş etmiş müqəddəs bir yerdir. Vətənpərvərlik, Vətənə bağlılıq da bu qəbildən müqəddəs hisslərdir. Azərbaycan kimi ölkədə yaşayan insanlar xoşbəxtdirlər. Azərbaycan tarixən dünyada yerləşdiyi coğrafi mövqeyinə görə diqqət mərkəzində olub. Vətən üçün ölümə də hazır olmalıyıq. Vətəni, torpağı uğrunda ölümü gözə alan, müstəqilliyinin, suverenliyinin keşiyində duran, ərazi bütövlüyünün bərpasına çalışan və Vətən uğrunda şəhidlik zirvəsinə ucalan gənc qardaş və bacılarımız hər birimiz üçün nümunədir. Onların mərdliyi Azərbaycan gənclərinin tükənməz Vətən sevgisindən xəbər verir. Tarixin bütün dövrlərində Azərbaycan qəhrəmanlar diyarı olub, bu gün də elədir. Mən vətənpərvər gənclərimizlə qürur duyuram. Düşünürəm ki, hər bir gəncin ən ali məqsədlərindən biri də məhz Vətənini sevmək və onu qorumaq olmalıdır. Vətəni sevmək təkcə səngərdə əlinə silah alaraq vuruşmaq demək deyil. Hər bir gənc öz yüksək təhsili, çalışdığı sahədə uğurlu fəaliyyəti, vicdanlılığı ilə vətənpərvərliyini sübut edə bilər. Lakin eyni zamanda təəssüf hissi ilə qeyd etməliyəm ki, xaricdə yaşayan, məqsədli şəkildə dövləti, Vətəni əleyhinə qara kampaniya aparan bir qrup gənc var. Bilirsiniz, hakimiyyətə müxalifətdə olmaq olar. Lakin milli məsələlərdə müxalifət də dövlətinin və millətinin ətrafında sıx birləşməlidir. Hakimiyyət naminə hər bir uğura kölgə salmaq olmaz. Obyektivlik insan üçün ən vacib və təqdirolunacaq bir xüsusiyyətdir. İnsan gərək qüsurları tənqid etdiyi kimi, dövlətinin, Vətəninin uğurlarına da sevinməyi bacarsın. Kimliyindən asılı olmayaraq hər kəs Vətən qarşısındakı xidmətlərini dərk etməli və onları yerinə yetirməlidir.



***- Müasir gənclərin texnoloji vasitələrə daha çox meyil etməsi, sosial mediada aktiv olması haqqında fikirləriniz?***

- İnformasiya-kommunikasiya vasitələrinin sürətli inkişafı və günün tələblərindən irəli gələrək insanlar öz həyat və fəaliyyətlərini KİV-lərlə yanaşı, sosial media vasitəsilə də qurur. Hazırda bir çox sosial şəbəkələr içərisində insanların daha çox və fəal istifadə etdiyi "Facebook" sosial şəbəkəsidir. Bununla yanaşı, bir sıra digər sosial şəbəkələr də günümüzdə getdikcə artan mövqedədir. Təbii ki, hər bir kommunikasiya vasitəsindən olduğu kimi, sosial şəbəkədən də maksimum səmərəli və faydalı istifadə etmək lazımdır. Biz siyasi partiya olaraq sosial şəbəkələrdən daha çox siyasi məqsədlər üçün istifadə edirik. Ümummilli lider Heydər Əliyevin həyatı, siyasi fəaliyyəti, eləcə də dövlət başçısı, YAP-ın Sədri cənab İlham Əliyevin daxili və xarici siyasət kursu, YAP-ın və partiyanın Binəqədi rayon təşkilatının fəaliyyəti, görülən işləri işıqlandırırıq. Bu işdə rayon təşkilatının könüllüləri və fəal gəncləri xüsusi fəallıq göstərirlər.

***- Gənclərimiz inkişaf və müvəffəqiyyət üçün hansı məqamlara diqqət yetirməlidirlər?***

- Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında cənab Prezident İlham Əliyev gənclərə mühüm tövsiyə və tapşırıqlarını verdi. Xüsusilə, gənclərin vətənpərvərlik ruhunda yetişmələrinin zəruriliyini qeyd edərək, müasir dövrdə gənclərimizin əsas vəzifələrinin müstəqilliyimizi möhkəmləndirmək olduğunu vurğuladı, gənclərə öz inamını və dəstəyini bəyan edərək, onlara uğurlar arzuladı. Biz də gənc olaraq, dövlətimizə sədaqətlə xidmət etməliyik. Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu dünya elmli, təhsilli insanların çiyinləri üzərində qurulub və onların kəşfləri, ixtiraları ilə inkişaf edir, daha da zənginləşir. Gənclərimizə də tövsiyəm ondan ibarətdir ki, təhsilə, elmə xüsusi diqqət yetirsinlər. Oxumağı, savadlanmağı, mütaliə etməyi gündəlik həyatlarının bir parçasına çevirsinlər. Ən yaxşı, ən xeyirli məşğuliyyət kimi daim təhsilə vaxt ayırsınlar. Bu baxımdan, elm, təhsil, dünyagörüşü, intellektual potensiallarının daha da artırılması üzərində yorulmadan çalışsınlar. Bunun üçün fəal gənclər hərəkatlarına, ölkəmizdə keçirilən müxtəlif beynəlxalq tipli yarışlara könüllü qismində qoşulsunlar, ictimai aktivliklərini daha da artırsınlar. Ölkəmizdə müxtəlif təşkilatlar tərəfindən təşkil edilmiş tədbirlərə, seminarlara, treninqlərə və intellektual yarışlara qatılsınlar. Sevib, seçdikləri sahələrdə uğurla, məsuliyyətlə çalışsınlar. Eyni zamanda, liderlik bacarıqlarını, ictimai-siyasi fəallıqlarını daim artırsınlar. Bunlarla yanaşı, əlavə məşğuliyyətlərlə - məsələn, idman, xarici dil və kompyuter biliklərini öyrədən kurslara getsinlər. Təbii ki, bütün bu göstəriciləri əldə edən gənclərimiz uğurlu gənclikdir.

**Yaqut Ağaşahqızı,**
**"İki sahil"**